2026-cı ilin oktyabr ayı ərzində müayinə və texniki xidmət məlumatları üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin əməkdaşları tərəfindən 2026-cı ilin 5 oktyabr tarixindən 30 oktyabr tarixinədək olan müddətdə müayinə və texniki xidmət məlumatları Reyestrindən toplanılmış məlumatların təhlili, qiymətləndirilməsi və yoxlanılması üsulu ilə monitorinq keçirilmişdir.

Monitorinq nəticəsində qazpaylayıcı sistem operatoru tərəfindən qaz qurğularında və qaz xətlərində müayinənin keçirilməsinin və nəticələrinin rəsmiləşdirilməsinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin tələblərinə uyğun aparılmadığı, o cümlədən Qanunun 18-ci və 19-cu maddələrinin tələblərinə əməl olunmasının müəyyən edilmiş dövriliklə həyata keçirilmədiyi, eyni zamanda müayinə və texniki xidmətlə bağlı Reyestrə daxil edilmiş məlumatların hüquqi aktlara uyğunluğunun, həqiqiliyinin, tamlığının və düzgünlüyünün yoxlanılmadığı, habelə qanunvericilikdə nəzərdə tutulmuş subyektlər tərəfindən Qanunun 18-ci və 19-cu maddələri ilə müəyyən edilmiş müddətlərə və hərəkətlərə əməl edilmədiyi müəyyən olunmuşdur.

Aşkar olunmuş nöqsanların aradan qaldırılması məqsədilə qazpaylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.